# Milli Prioritetlərin tətbiqi davamlı və yüksək iqtisadi tərəqqiyə aparacaq

***Müstəqil Azərbaycan bu gün sosial- iqtisadi, siyasi və mədəni inkişafının yeni mərhələsini yaşayır. Ölkədə milli iqtisadiyyatın güclənməsini və müasirləşməsini təmin etmək məqsədilə sosial-iqtisadi islahatlar həyata keçirilir. Bunun nəticəsində iqtisadiyyatın həcmi getdikcə böyüyür, infrastruktur yenilənir və güclənir, pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə azalır, maliyyə imkanları genişlənir və nəhayət, Azərbaycan yuxarı orta gəlirli dövlətlər qrupunda möhkəmlənir.***

> *Azərbaycan uzun illər ərzində sabitlik yolu ilə gedir. Ölkəmizdə mövcud olan sabitlik Azərbaycan xalqının iradəsi ilə təmin edilir. Bizim apardığımız siyasət xalq tərəfindən dəstəklənir. Siyasət konkret işlərlə ölçülür. Bizim siyasətimizin təməlində konkret işlər, real inkişaf, söz yox, əməl dayanır və verilən hər bir söz həyatda öz əksini tapır. Ona görə də xalq tərəfindən bizə göstərilən etimad yüksək səviyyədədir və sabitliyin, əmin-amanlığın əsas şərtləri məhz budur.*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**



Son illərdə artan iqtisadi güc Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Ölkə regional iqtisadiyyatın lokomotivi olaraq dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilib. Bütün bunlar Azərbaycanın regionda iqtisadi rolunu yüksəldib, xarici təsirlərə davamlı olmasına və müstəqil dövlət kimi suverenliyinin güclənməsinə möhkəm zəmin yaradıb.

Əldə edilən iqtisadi üstünlük, uzun illər formalaşdırılan ictimai-siyasi və sosial-iqtisadi bünövrə ölkənin hərbi qüdrətini də yüksəldib. Bu uğurlar torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyünün bərpası ilə nəticələnən tarixi qələbəmizi şərtləndirib. Ötən il noyabrın 10-da imzalanan tarixi Bəyanatla Azərbaycanın siyasi və iqtisadi suverenliyinin təmini işğaldan azad edilən ərazilərin mövcud iqtisadi potensialından xalqımızın rifahı üçün tam istifadə olunmasına geniş imkanlar yaradıb.

Bununla bərabər, uzun müddətdir ki, qlobal bəlaya çevrilən koronavirus pandemiyası ilə aparılan səmərəli mübarizə, ümumdövlət məqsədləri naminə həmrəylik təcrübəsi və ərazi bütövlüyünün bərpası irimiqyaslı və dərin islahatların aparılmasına zəruri əsasları gücləndirib. Əvvəlki illərdə reallaşdırılan islahatlar hesabına respublikanın sosial-iqtisadi potensialı artıb, iqtisadiyyatın xarici təsirlərə dözümlülüyü yaxşılaşıb. Azərbaycanda sosial-iqtisadi quruculuq tədbirləri və ərazi bütövlüyünün təmini uzunmüddətli dövrdə Azərbaycanın daha keyfiyyətli inkişaf mərhələsinə keçməsinə, sürətlə inkişaf edən, yüksək rifaha malik lider dövlət olmasına müsbət təsir göstərib.

Hazırda müstəqil və suveren Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşmanın təmin edilməsi qarşıda mühüm vəzifə kimi durur.

Qlobal iqtisadi reallıqlar, eləcə də yeni inkişaf mərhələsində qarşıya qoyulan məqsədlər Azərbaycanın əsas sosial-iqtisadi inkişaf istiqamətlərinin və buna uyğun milli prioritetlərin müəyyən olunmasını tələb edir.

Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamı da qarşıdakı dövrdə respublikamızın əsas sosial-iqtisadi inkişaf istiqamətlərini və buna uyğun milli prioritetlərini müəyyənləşdirməklə əldə olunan uğurların miqyasının, həmçinin həcminin genişləndirilməsi məqsədi daşıyır.

Sənəddə uzunmüddətli dövrdə iqtisadi artımın sağlam və tarazlı olmasının önəmi, həmçinin belə iqtisadi artımın ölkənin davamlı inkişafı üçün möhkəm zəmin yaradacağı vurğulanıb. Eyni zamanda, bu prioritetin səmərəli həyata keçirilməsi üçün iki məqsədin–davamlı və yüksək iqtisadi artımın, daxili və xarici təsirlərə dayanıqlığın təmin olunması nəzərdə tutulub.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də bildirilir ki, iqtisadi artım vətəndaşların həyatına təsir göstərən başlıca amillərdən biridir. İqtisadiyyatı davamlı və yüksək templərlə artırmaqla ölkədə adambaşına düşən milli gəlirin yüksək səviyyəsinə nail olunmalıdır. İqtisadi artım yüksək gəlirli iş yerləri yaratmaqla həyat səviyyəsinin ilbəil yaxşılaşmasını təmin etməlidir.

İqtisadi artımın davamlı olması, milli iqtisadiyyatın dərin şaxələnməsi, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr" tapılmalıdır. Neft sektoru sosial-iqtisadi inkişafın dayaqlarından biri olsa da, qeyri-neft iqtisadiyyatı inkişafın mərkəzinə çevrilməlidir.

İqtisadi artım qabaqcıl və səmərəli özəl təşəbbüslərə söykənməli, dövlət və özəl əməkdaşlığı gücləndirilməlidir. Yenilikçiliyə malik özəl sektorda fəallıq daha da canlandırılmalı, qeyri-neft sektorunun maliyyələşməsində özəl sektorun payı artırılmalıdır.

Son illər ərzində ölkəmizdə yaradılan siyasi və makroiqtisadi sabitlik Azərbaycanın regiondakı xüsusi rolunu fərqləndirir. Bu baxımdan hazırda Azərbaycanın hər bir vətəndaşının öz potensialını reallaşdırması üçün əlverişli şərait yaradılıb. Bu gün yalnız iş yeri tapmaq deyil, eləcə də iş yeri yaratmağa çalışan hər bir şəxsə dövlət tərəfindən bir sıra tədbirlər vasitəsilə müvafiq qanunvericiliyin tətbiqi yolu ilə dəstək verilir.

Həyata keçirilən uğurlu islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı 2014-cü ildən başlanan və bir neçə il davam edən qlobal maliyyə-iqtisadi böhrandan itkilərsiz çıxdığı kimi, hazırda koronavirusun yaratdığı problemləri də tədricən möhkəmlənən iqtisadi-maliyyə potensialı hesabına aradan qaldırmağa, iqtisadi sabitliyi qoruyub-saxlamağa qadirdir.

Yeri gəlmişkən, Azərbaycanın tədricən güclənən iqtisadi-maliyyə potensialı haqqında aydın təsəvvür yaratmaq üçün ötən ilin bir sıra göstəricilərinə diqqət yetirmək istərdik. Belə ki, 2020-ci ildə respublikada məcmu dövlət borcunun ÜDM-ə nisbəti dünya üzrə göstəricidən təxminən 4 dəfə az olub. Azərbaycan qarşılaşdığı xarici şoklarla mübarizədə xarici deyil, öz resurslarına əsaslanmaqla borc dayanıqlılığını qoruya bilib. Həmçinin 2020-ci ildə dövlət büdcəsinin azalan gəlirlərinin və artan xərclərinin tarazlaşdırılması üçün "fiskal fəza"dan istifadə etməklə büdcə dürüstləşdirilməsi çərçivəsində 2,3 milyard manatlıq əlavə maliyyə təminatı yaradıb.

Ötən il ölkədə pul təklifinin artması və uçot dərəcəsinin azaldılması fonunda monetar siyasətin yumşaldılması fiskal genişlənmə siyasəti ilə əlaqələndirilib. Beləliklə, fiskal və monetar siyasətin əsas hədəfi makroiqtisadi sabitlik və iqtisadi aktivlik arasında balansın qorunması olub. Pandemiya əleyhinə toplanan 3,5 milyard manatlıq vəsait hesabına iqtisadi geriləmə yumşaldılıb, makroiqtisadi sabitlik qorunub, məşğulluğa dəstək verilib, sahibkarlara kömək olunub, sosial layihələr genişləndirilib, bank kreditləri restruktrizasiya edilib. zəmanət və subsidiyalar verilib, strateji valyuta ehtiyatları demək olar ki, sabit qalıb.

Bütün bunlar onu göstərir ki, ötən il ərzində Azərbaycan hökuməti tərəfindən dünya iqtisadiyyatında gedən proseslər diqqət mərkəzində saxlanılaraq, baş verə biləcək neqativ iqtisadi tendensiyaların ölkə iqtisadiyyatına mənfi təsirlərinin neytrallaşdırılması üçün preventiv tədbirlər uğurla reallaşdırılıb. Belə ki, neftin qiymətinin kəskin ucuzlaşmasının tədiyə balansına təsirlərinin proqnoz ssenariləri hazırlanaraq, bu ssenarilərə əsasən sabitləşdirici tədbirlər paketi həyata keçirilib.

Hazırda dünyada baş verən neqativ iqtisadi meyillər fonunda belə Azərbaycan iqtisadiyyatı dayanıqlılıq nümayiş etdirir, iqtisadiyyat inkişaf yolu ilə uğurla irəliləyir, ölkənin maliyyə imkanlarının daha da genişlənməsi üçün önəmli tədbirlər reallaşdırılır.

Ekspertlərin fikrincə, bu gün ölkə iqtisadiyyatı 2014-cü ildən başlanan qlobal maliyyə-iqtisadi böhranı dövründən daha dayanıqlıdır. Əvvəlki illərdə olduğu kimi, cari il də müsbət inkişaf dinamikası davam edir.

İqtisadi və sosial sahələrin inkişafı istiqamətində reallaşdırılan tədbirlərin miqyasını aydın təsəvvür etmək məqsədilə bəzi statistik göstəriciləri də diqqətə çatdırmaq istərdik. Belə ki, ötən il pandemiya və müharibə şəraitində Azərbaycan iqtisadiyyatında müsbət dinamika müşahidə olunub: qeyri-neft-qaz sənayesi 11,3 faiz, neft-qaz sektoru üzrə əsas kapitala investisiyaların həcmi 8,6 faiz, xarici mənbələr üzrə əsas kapitala investisiyaların həcmi isə 21,8 faiz artıb, kənd təsərrüfatında 2 faiz artım qeydə alınıb.

Ölkənin enerji resurslarının səmərəli istifadəsi, iqtisadi azadlıqların təmin olunması, "kölgə iqtisadiyyatı" ilə mübarizə və digər sahələrdə əldə olunan uğurlar makroiqtisadi göstəricilərin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına imkan yaradıb. Azərbaycan artıq iqtisadi baxımdan regionun ən güclü dövləti kimi bütün dünya tərəfindən qəbul olunub.

Bütün bunlar Azərbaycanın iqtisadi gücünün, hətta pandemiya dövründə belə artmasının ifadəsidir. Dövlətimizin başçısının bildirdiyi ki, bu da dövlətimizin istənilən böhrana hazır olduğunu göstərir: "Çünki biz elə bir möhkəm təməl yaratmışıq ki, istənilən böhranla əlaqədar öz düzgün addımlarımızı atırıq və neftin qiyməti hətta 35 dollar səviyyəsində olsa belə, Azərbaycan bütün sosial öhdəlikləri yerinə yetirəcək, ölkəmiz üçün lazım olan infrastruktur layihələrini icra edəcək, ölkəmizin hərbi potensialının möhkəmləndirilməsi üçün əlavə vəsaitin təşkil edilməsinə də çatacaqdır...".

Lakin son illərdə dünya iqtisadiyyatında potensial iqtisadi artım templərinin aşağı düşməsi, əmtəə bazarlarında qiymət volatilliyinin xeyli yüksəlməsi, qlobal maliyyə sabitliyinin kövrəkliyinin artması, xüsusilə ötən ilin əvvəllərindən başlanan koronavirus pandemiyası, həmçinin bununla əlaqədar əksər ölkələrdə sosial-iqtisadi fəallığın məhdudlaşması Azərbaycan iqtisadiyyatı qarşısında da yeni strateji siyasət çağırışları yaradıb.

Əldə edilən sosial-iqtisadi rifah səviyyəsinin əlverişsiz qlobal mühitdə dayanıqlı saxlanılması və daha da yüksəldilməsi üçün milli iqtisadiyyatımızın beynəlxalq rəqabət qabiliyyəti gücləndirilməli, iqtisadiyyatın neft gəlirlərindən asılılığı minimuma endirilməli, ölkədə makroiqtisadi və maliyyə sabitliyi qorunmalıdır.

Növbəti onillikdə Azərbaycabda sosial-iqtisadi rifahın yüksəldilməsi üçün iqtisadiyyatın ikiqat artımının təmin edilməsi qarşısında duran başlıca strateji çağırışlardan biridir. Xüsusilə postpandemiya dövründə iqtisadiyyatın illik artım tempinin yüksəldilməsi üçün onun yeni mexanizmlərinin formalaşdırılması və inkişaf etdirilməsi, bu məqsədlə daha dayanıqlı, inklüziv iqtisadi artım mənbələrinin yaradılması zəruri şərtdir. Bu zaman özəl investisiyaların, o cümlədən birbaşa xarici investisiyaların cəlbinə, qeyri-neft ixracının genişləndirilməsinə əsaslanan milli inkişaf prioritetlərinin müəyyənləşdirilməsi, qlobal dəyər zəncirinə fəal qoşulma, investisiya mühitinin radikal yaxşılaşdırılması, müasir səhiyyə, təhsil siyasəti vasitəsilə insan kapitalının keyfiyyətinin daha da yüksəldilməsi, biznesin tələblərinə uyğunlaşdırılması, mülkiyyət hüquqlarının daha səmərəli qorunması və digər strateji vəzifələrin icrası prioritet məsələ kimi diqqət mərkəzində saxlanılır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***